**Salmanlı, Rəhman**. Bir məhəllədən olan iki igid döyüşçü : [əsgər Andrey Antonov, Məhəmməd İbayev] / R. Salmanlı // Azərbaycan : qəzet. - 2020. - 20 noyabr. - **№ 242**. - S. 5.

Azərbaycanın suverenliyi və ərazisinin 30 ilə yaxın Ermənistan qoşunları tərəfindən işğalına, habelə erməni terrorçularının əks hücumlarına son qoymaq məqsədilə sentyabrın 27-də başlanan Vətən müharibəsinə yollanan yüzlərlə, minlərlə könüllülər arasında Bakının Binəqədi rayonu, Biləcəri qəsəbəsindən bir məhəllədən olan iki igid oğlan da var: Məhəmməd İbayev və Andrey Antonov.

Hər ikisi Biləcəri qəsəbəsindəki şəhid Vüqar Əvəzov adına 300 saylı orta məktəbi bitirib. Məhəmməd 20, Andrey 21 yaşındadır. Hər ikisi vaxtilə Azərbaycan Ordusu sıralarında Göranboy rayonunda "N” saylı hərbi hissədə əsgəri xidmətdə olmuşlar - Məhəmməd sapyor, Andrey isə sürücü. Bir neçə aylıq xidmətdən sonra Andrey nümunəvi əsgər kimi kiçik çavuş rütbəsində təltif olunaraq cəbhə bölgəsinə - Tərtər rayonundakı "N” saylı hərbi hissəyə bölmə komandiri göndərilir. Andrey Antonov burada erməni qoşunlarının əks-hücumlarının qarşısının alınmasında göstərdiyi şücaətə görə dəfələrlə komandanlıq tərəfindən təşəkkür və fəxri fərmanlara layiq görülür.

Milliyyətcə rus olan Andrey Antonov Vətən müharibəsi başlayanda Binəqədi Rayon Hərbi Səfərbərlik şöbəsinə müraciət edərək "Azərbaycan mənim də vətənimdir” deyə cəbhəyə, özü də ön xəttə, işğalçı Ermənistan qoşunlarına qarşı döyüşə getmək arzusunu bildirmişdi. Sentyabrın 29-da Füzuliyə yollanan Andrey Antonov burada Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, Yuxarı Güzlək, Gorazıllı, Qaradağlı, Xatunbulaq, Qarakollu, daha sonra Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhəri işğaldan azad olunduqdan sonra hərbi döyüş maşınlarının sükanı arxasında Cəbrayıl rayonunda gedən döyüşlərin iştirakçısı olmuş, kənd və qəsəbələrin erməni terrorçularından təmizlənməsində qüvvəsini əsirgəməmişdir.

Cəsur döyüşçünün atası Dmitri Vyaçeslaviç, anası Yuliya Vladimirovna və bacısı Nionila Antonova Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərb tarixinə yeni səhifələr yazan Milli Ordunun sıralarında könüllü olaraq torpaqlarımızın işğaldan azad olunmasında ailənin fəxri olan Andreyin iştirakından qürur duyurlar.

Andrey Antonovun qonşusu, 21 yaşına yenicə qədəm qoymuş Məhəmməd İbayev 10 ay olardı ki, hərbi xidmətini başa vurmuşdu. Milli Ordunun tərkibində Goranboy istiqamətində topçu kimi müdafiədə iştirak edib.

Hazırda cəbhə bölgəsində xidmətdə olan döyüşçünün atası Azər İbayev bildirdi ki, erməni əsgərləri sentyabrın 26-sı axşam tərəfi sərhədlərimizi pozub əlavə torpaq işğal etmək arzusu ilə dinc əhalini qəfildən top və mərmilərdən atəşə tutduqlarını eşidəndə Məhəmməd çox sarsıldı. O, hərbi xidmətdə olarkən erməni terrorçularının törətdikləri təxribatların acı nəticələrindən xeyli danışdı. Onların insanlığa sığmayan və dinc azərbaycanlı əhaliyə qarşı törətdikləri vəhşilikləri, vandalizm hərəkətlərini xatırladıqca düşmənə nifrətini gizlədə bilmirdi. Səhər açılar-açılmaz məndən xahiş etdi ki, ata, mənimlə rayon hərbi komissarlığına gedək, anamın və sənin xeyir duanla ərizə yazıb könüllü olaraq cəbhəyə yollanacağam. Onun bu istəyinə anası bir az tərəddüd etsə də, sonradan bizə dəstək oldu...

Döyüş yolunu Füzulidən başlayan Məhəmməd İbayev Milli Ordu sıralarında erməni işğalçılarını bu rayondan "iti qovan kimi” qovduqdan və məhv etdikdən sonra Cəbrayıl, Ağdərə, Xocavənd və Hadrutun kənd və qəsəbələrinin, habelə qədim Şuşa şəhərinin işğaldan azad edilməsində şücaətlər göstərib. Keçdiyi cəbhə yollarında iki dəfə yaralansa da, müalicədən sonra dərhal ön cəbhəyə döyüşçü yoldaşlarının yanına qayıdıb.

Hazırda Şuşa şəhərindəki hərbi hissələrin birində xidmətdə olan cəsur döyüşçü ata və anasına yazdığı mesajlarda bir könüllü olaraq Vətən müharibəsinin iştirakçısı və "Qarabağ Azərbaycandır!” deyən Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin bu müqəddəs fikirinə qoşularaq torpaqlarımızın işğaldan azad olunması üçün döyüşlərə atıldığından şərəf duyduğunu bildirir, hər

mesajın sonunda yazır: "Çox məmnunam ki, istəyimə çatmışam, şəhidlərimizin qisasını birə-iki aldıq, artıq bu torpağın üzərində alnıaçıq gəzə bilərik, Qarabağ Azərbaycandır!"

Rəhman SALMANLI,

"Azərbaycan"